Azərbaycan ...
Auditorlar ...
Daxil № 61
"27" 01. 2021-ci il

AZƏRBAYCAN SƏNAYE KORPORASİYASI

№ 01-07-2021-0042 "26" 01 2021 il

**Azərbaycan Respublikasının**
**Auditorlar Palatasının sədri**
**cənab Vahid Novruzova**

**Hörmətli Vahid müəllim,**

Ümumilli liderimiz Heydər Əliyev tərəfindən 1994-cü ildə "Auditor xidməti haqqında" Azərbaycan Respublikasının Qanununun qəbul edilməsi və ardınan 1996-cı ildə Azərbaycan Respublikası Auditorlar Palatasının yaradılması ulu öndərimiz tərəfindən bazar iqtisadiyyatına keçid istiqamətində həyata keçirilən siyasətin, cəmiyyətdə maliyyə şəffaflığının təmin olunması və bazar infrastrukturları sistemində auditə verilən qiymətin parlaq təzahürüdür.

25 il ərzində Auditorlar Palatası tərəfindən həyata keçirilən səmərəli iş nəticəsində ölkəmizin milli audit sistemi formalaşmış, milli kadrların hazırlanmasında əhəmiyyətli nailiyyətlər əldə edilmiş, audit xidmətlərinin həcmində və keyfiyyətində müsbət dəyişiklik əldə edilmişdir. Azərbaycanda korrupsiya və şəffavlığın təmin edilməsi istiqamətində həyata keçirilən dövlət siyasətinə Auditorlar Palatası da öz uğurlu fəaliyyəti ilə töhfə verməkdədir.

Ölkə Prezidenti cənab İlham Əliyevin audit sahəsinə ayırdığı xüsusi diqqət və qayğı nəticəsində qanunvericilik bazası möhkəmləndirilmiş və auditorların mənafeinin müdafiəsi gücləndirilmişdir.

44 günlük Vətən Müharibəsindən sonra Kəlbəcər-Laçın və Yuxarı Qarabağ iqtisadi rayonlarının ümumi Azərbaycan iqtisadi modelinə inteqrasiyası reallaşacaq ki, bu da ölkəmizdə yeni iqtisadi mərhələnin başlanğıcı kimi xarakterizə edilir. Ölkə başçısı cənab İlham Əliyevin böyük qayıdış planının uğurla reallaşdırılmasında və icra ediləcək layihələrin şəffavlığının təmin edilməsində Siz, auditorların da üzərinə böyük missiya düşməkdədir.

Əminəm ki, yeni dönəmdə Azərbaycan auditorları Prezident İlham Əliyevin rəhbərliyi ilə, respublikamızda həyata keçirilən iqtisadi modernizasiya prosessində aktiv rol oynayacaq və ölkəmizdə iqtisadi təhlükəsizliyin, rəqabət qabiliyyətli iqtisadiyyatın gücləndirilməsində bu günə qədər həyata keçirdiyi şərəfli missiyanı davam etdirəcəkdir.

Sizi və Palatanın bütün əməkdaşlarını rəhbərlik etdiyim "Azərbaycan Sənaye Korporasiyası" ASC-nin kollektivi adından fəaliyyətinizin 25 illik yubileyi münasibətilə ürəkdən təbrik edir, ölkə iqtisadiyyatının inkişafında bundan sonra göstərəcəyiniz xidmətlərinizdə uğurlar diləyirik.

Dərin hörmətlə

**Baş direktor** **Kamran Nəbizadə**

"Azərbaycan Sənaye Korporasiyası" ASC

"Azərbaycan Respublikası, Bakı şəhəri, İzmir küç.14 , AZ 1065, tel.: +994 12 5059511